**Ramiz Quliyev**
Tarzən, Bakı Musiqi Akademiyasının professoru,
Azərbaycan Respublikasının xalq artisti,
Dövlət Mükafatı laureatı, Azərbaycan
e-mail: rguliev_music@yahoo.com

**Eyyub Quliyev**
Bakı Musiqi Akademiyasının baş müəllimi,
Azərbaycan Dovlət Akademik Opera və Balet
Teatrının dirijoru, beynəlxalq müsabiqələr
laureatı, Azərbaycan
e-mail: ayyubguliyev@yahoo.com

# MUĞAM İFAÇILIĞINDA ƏNƏNƏ VƏ NOVATORLUQ

***Açar sözlər:*** *Tar,ənənə,virtuozlug,novatorluq, muğam ekologiyası.*

Qloballaşma və inteqrasiya proseslərinin gündəmə gətirdiyi problemlər arasında şifahi ənənəli musiqi mədəniyyətinin taleyi və muğam ifaçılığının inkişafı ilə bağlı olan məsələlərin araşdırılması indiki zamanda çox aktualdır. Dünyada inteqrasiya proseslərinin gücləndiyi bir dövrdə əsrlər boyu biçimlənmiş qeyri-maddi mədəni irsi kütləvi mədəniyyətin dağıdıcı təsirindən qorumaq mümkün olacaqmı? Nəhəng informasiya axını dövründə əcdadlarımız tərəfindən zaman-zaman əldə edilmiş mədəni dəyərlər gənc nəslin nümayəndələri üçün nə dərəcədə maraq kəsb edir və şərq musiqi mədəniyyətinin nümayəndələri qərb dinləyiciləri qarşısında çıxış edərkən qədim musiqi ənənələrini yeni şəkildə interpretasiya etməlidirlərmi?

Təbii ki, qloballaşma dövrü ilə bağlı olan bu və digər problemlər ənənəvi musiqi mədəniyyətilə məşğul olan heç bir kəsi laqeyd qoya bilməz. Aydın məsələdir ki, bu problemlərdən bir çoxu həm nəzəri, həm də təcrübə baxımdan problem olaraq qalmaqdadır. Lakin bir məsələ qətiyyən şübhə doğurmur ki, xalq musiqisi ölməzdir. Bir fikri burada sitat gətirmək istərdik : "Sonluq" anlayışı folklora qarşı

tətbiq etmək qeyri-mümkündür, çünki məhz folklor örnəkləri çağdaş zamanənin gələcəyini təmin edən keçmişin bir nişanəsidir...”

Bu bir danılmaz həqiqətdir ki, inteqrasiya proseslərinin artması, digər tərəfdən isə, kütləvi mədəniyyətin bütün sahələrə sirayət etdiyi bir dövrdə ənənəvi musiqi janrlarının üslub saflığının qorunması kimi problem gündəmə gətirilir. “Muğam ekologiyası” sahəsində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi çox vacib və aktual məsələlərdən biridir. Əslində muğam qaynaqlarının saflığının qorunub saxlanılması məsələsi həmişə Azərbaycan musiqiçilərinin diqqət mərkəzində olmuşdur. Hələ keçən əsrin 50–60-cı illərində Seyid Şuşinski, Zülfi Adıgözəlov və digər məşhur xanəndələrimiz Azərbaycan muğamına gətirilmiş yad nəfəslərə qarşı çıxış etmişdilər. Dahi Üzeyir Hacıbəylinin də Azərbaycan muğamının özünəməxsusluğu və saflığının düzgün şəkildə saxlanılması sahəsində apardığı mübarizə hamıya bəllidir. Əsrlər boyu biçimlənmiş ənənələr üzərində pərvazlanan muğam bu gün də düzgün və professional tərzdə ifa olunmalıdır. Ancaq çağdaş dövrümüzdə müşahidə etdiyimiz bəzi hallar musiqiçiləri narahat etməyə bilməz – Məsələn, instrumental ifa zamanı musiqi cümlələrinin mənasının təhrif olunması, muğama yad olan xırdalıq və elementlərin əlavə edilməsi, musiqinin məntiqi inkişafına mane olan hədsiz sərbəst ifa tərzi daha tez-tez baş verən xüsusiyyətlər kimi qeyd oluna bilər. Qeyd olunan cəhətlərin səbəblərini araşdırmaq istərdik – bir sıra ifaçılar gənc yaşlarında olduqları üçün çox zaman idarə olunmayan emosional təsirə aludə olaraq, muğamın məna dünyasının çərçivəsindən tamamilə kənara çıxırlar; ifaçının fiziki-texniki imkanları müasir tələbatlara cavab vermədiyinə və musiqiçinin zövq və düşüncə tərzinin aşağı olmasına görə muğamın forma və melodik quruluşuna ciddi xələl xəlir. İfaçılar tez-tez seçilmək və yenilik etmək məqsədilə gözlənilmədən bir muğamdan digər “qohum” olmayan muğama modulyasiyalar edir. Bu cəhətlər axtarış məqsədli aparılsa da, muğamın tonal quruluşunun düzgün şəkildə qorunub saxlanılması cox vacibdir.

Bununla bərabər son onilliklər ərzində baş verən çox maraqlı bir cəhət diqqət cəlb etməyə bilməz – tar ifaçılarının ifa sürəti zaman keçdikcə artmaqda davam edir. İndiki müasir zaman – texnika dövrü hətta musiqi ifaçılığının ruhunda və onun təfsir üslubunda öz tələblərini və həyat nəbzini əks etdirir. Musiqi ifaçılığında sürətin kifayət

qədər artması ümumiyyətlə, bütün muğamların ifa tərzinə şamil edilə bilər. Ancaq bu xüsusiyyət müəyyən mənfi cəhətləri ilə də seçilir, misal üçün, həddindən artıq yüksək sürət və tempdə təqdim olunan ifaların mənası çox xaotik, qarışıq və qeyri profesionallığı ilə seçilir (Qeyd olunan bu fikirlərin əyani nümunəsi kimi professor, tarzən Ramiz Quliyev klassik muğam "Çahargah"dan bir parça ifa edir). Xanəndələrin ifasından qeyd etmək istədiyimiz cəhətlərdən bir neçəsi – məsələn, əruz vəzninin qaydalarının pozulması, muğam şöbələrinin qısaldılması, milli ruha xas olmayan və digər xalqlara mənsub olan elementlərin muğama əlavə edilməsidir.

Son zamanlar daha tez-tez diqqət cəlb edən cəhətlərdən biri də – xanəndə ilə birgə çıxış edən instrumental ifaçıların müşayiət balansını qoruyub saxlamamasıdır. Yəni, xanəndə tərəfindən oxunan qısa bir parça uzun bir instrumental bölümlə qarşılaşır. Və nəticədə, xanəndənin ifasının inkişafı tamamilə qırılır, forma pozulur.

Toxunmaq istədiyimiz digər bir məsələ – muğam ifaçılığında ənənələrə söykənən yeni və müasir ifa tərzidir. Məlum olduğu kimi, incəsənətin hətta ənənəvi növlərində belə "daimilik" məfhumu yoxdur. Hər bir istedadlı ifaçı, təbii ki, ənənəvi muğamları özünə xas olan tərzdə ifa edir. Bəzi hallarda isə xüsusi istedada malik olan ifaçıların yaradıcı axtarışları hətta yeni muğamların meydana gəlməsilə də nəticələnir. Bu baxımdan "Qatar" və "Kürdi-Şahnaz" muğamlarının yaradıcısı, görkəmli Qarabağ xanəndəsi Hacı Hüsünün adını çəkmək kifayətdir. Lakin unutmaq lazım deyil ki, bu yaradıcılıq axtarışları instrumental ifaçı və xanəndənin nəinki Azərbaycan muğamının, hətta digər Şərq xalqlarının monodik musiqisi sahəsində dərin biliklər əsasında aparılmışdır. Bu bir daha onu sübut edir ki, muğam ifaçılıq mədəniyyəti sahəsində axtarışlar yalnız ənənələrin dərindən mənimsənilməsi əsasında səmərə verə bilər. Çağdaş dövrümüzlə paralellər apararaq, qeyd edə bilərik ki, bəzi instrumental ifaçı və xanəndələrin də cəsarətli axtarışları klassik muğam ənənələrinin əsasında gerçəkləşir. Tar ifaçılıq sənəti öz dirçəliş çağını hələ XX əsrin əvvəllərində yaşamışdır. Görkəmli tar islahatçısı Mirzə Sadıq Əsədoğlu (Sadıqcan) tərəfindən təkmilləşdirimiş tar Yaxın Şərqin musiqi məkanını fəth etməyə başlayır. XX əsrin 20-ci illərin sonunda o dövrün dar düşüncəli məmurları "proletariatın mədəni tələblərinə cavab verməyən" tarı muzey

arxivlərinə təhvil vermək iddiası ilə çıxış etmişdilər. Yalnız Üzeyir bəyin gərgin fəaliyyəti nəticəsində yeni not sisteminə keçirilmiş tar bütün çətinlikləri dəf edərək öz inkişaf tarixinin yeni mərhələsinə qədəm basır.

Sonrakı dövrlərdə Azərbaycanda ifaçılıq mədəniyyəti tarixinə parlaq səhifələr yazmış görkəmli tarzənlər – Q.Pirimov, M.M.Mansurov Ə.Bakıxanov, B.Mansurov H.Məmmədov, Ə.Dadaşov və digərləri vacib uğurlara imza atmışlar. Keçən əsrin 80–90-cı illəri – bu tarix göstərir ki, "yüksək texnologiyalar" dövründə zamanın nəbzini tuta bilməyən bəzi xalq çalğı alətləri tənəzzülə uğramışlar. Bu gün isə ifaçılıq sahəsində əsas nailiyyətlərimizdən biri isə məhz ondan ibarətdir ki, tarı zamanla həmahəng səsləndirməyə nail ola bilmişik. Azərbaycan bəstəkarları tərəfindən yeni-yeni böyük və kiçik həcmli əsərlərin yazılması və dünya səhnələrində orkestrlərlə uğurlu ifa olunması Azərbaycan müasir tar ifaçılığının yeni inkişaf mərhələsinə qədəm qoyduğunun göstəricisidir.

Keçən əsrin 70-ci illərindən başlayaraq tar ulu muğamlardan tutmuş ən müasir əsərlərə qədər ifa etməyə qadir olan universal bir alətə çevrilmişdir. Muğam ifaçılarımızın xarici ölkələrdə çıxışlarını işıqlandıran mətbuat orqanlarının icmalı bir daha sübut edir ki, muğamın emosional təsir dairəsi hüdudsuzdur, muğam poetikası ən mürəkkəb ifa texnikasını zənginləşdirməyə qadirdir. Tar muğam ifaçılığında müasir inkişaf xəttinin parlaq bir nümunəsi kimi "Şur" muğamından bir parçanı dinləməyi təklif edirik. İlk öncə klassik ənənələrə uyğun bir üslubda səslənən bu muğam, indi isə onun tamamilə müasir və inkişaf etdirilmiş variantı professor Ramiz Quliyev tərəfindən təqdim olunur. Bu ifada artıq sadə təksəsli deyil, mürəkkəb, iki-üç, hətta çoxsəsli polifonik elementlərin istifadə olunmasının şahidi oluruq. Digər bir ifada ("Şahnaz" muğamı) tarzən Ramiz Quliyev müxtəlif uslubları – ənənə və novatorluğu ardıcıl şəkildə təqdim edərək, son dövrün yeni ifa nailiyyətlərini nümayiş etdirir.

Çıxışımızın sonunda qeyd etmək istəyirik ki, 2003-cü ildə YUNESKO tərəfindən Azərbaycan muğamının "Bəşəriyyətin şah əsəri" elan edilməsi bu bədii fenomenin inkişafı üçün böyük perspektivlər açdı. Bu münasibətlə qəbul olunmuş geniş məzmunlu meqa proyektlər, muğam ənənələrinin dirçəlməsinə və inkişafına yönəlmiş tədbirlərin keçirilməsi öz bəhrəsini vermişdir. Heydər

Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi altında Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqı ilə birgə həyata keçirilən Beynəlxalq Muğam Festival və Müsabiqələri, Elmi Simpozium və digər elmi-yaradıcılıq tədbirləri artıq öz səmərəsini göstərir. Belə ki, 2012-ci ildə Azərbaycan Tar ifaçılığı sənətinin YUNESKO-nun Qeyri Maddi Mədəni İrs Reprezentativ siyahısına salınması bunun əyani sübutudur.

Məhz qeyd olunan bütün bu nailiyyətlərin nəticəsində muğam, dəyişən və qloballaşan dünyamızda Azərbaycan mədəniyyətinin vizit kartına çevrilmişdir. Bundan irəli gələrək Muğam ekologiyasının təmin olunmasının bütün muğam ifaçı və nəzəriyyəçilərinin vacib məqsədlərindən biri olduğuna inanırıq.

**Ramiz Guliyev**
Performer on the tar
Professor of the Baku Music Academy
People artist of the Azerbaijan Republic
Laureate of the State Prize of the Azerbaijan Republic

**Ayyub Guliyev**
Senior teacher of the Baku Music Academy
Conductor of the Azerbaijan State Academic
Opera and Ballet Theatre
Laureat of the international musical competitions

## TRADITION AND INNOVATION IN THE MUGHAM PERFORMANCE

Abstract

***Keywords:*** *tar, mugham tradition, ecology of mugham, contemporary tar performance,virtuosity.*

Among the problems created by the globalization and integration processes, it is very essential to explore the issues concerning the traditions of the oral music culture and the constant situation

around the performance of the Azerbaijan classical mugham. Now it's very required to implement some measures in the field of the "Ecology of Mugham" and to get the right interpretation in the accordance with the professional system and the basic rules of mugham. In fact, saving the integrity of the origins of mugham was one of the goals of the Azerbaijan musicians. At this point the founder of the Azerbaijan classical music Uzeyir Hajibeyli played very significant role as the composer as well as the musicologist in the beginning of the XX century. Another important issue – traditions of the instrumental performance of mugham and it's new contemporary way that is based on the best traditions of the great musicians' schools. Basically there is no concept of constancy, even in traditional forms of art. Of course, every musician proposes his own way during the performance. We can notice that some talented performers and singers now find the new interesting ways of the interpretation that enrich the classical mugham history.